# "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
# Publik Hüquqi Şəxsi

31 dekabr 2022-ci il tarixində tamamlanan il üzrə
birləşdirilmiş (konsolidə edilmiş)

## MALİYYƏ HESABATLARI
## VƏ
## MÜSTƏQİL AUDİTORUN HESABATI

Azərbaycan Respublikası, Bakı şəhəri
2023-cü il

**MÜNDƏRİCAT**


| | Səhifə |
|---|---|
| Maliyyə hesabatlarının hazırlanmasına və təqdim edilməsinə görə məsuliyyətlə bağlı rəhbərliyin bəyanatı | 3 |
| Müstəqil auditorun hesabatı | 5 |
| | 7 |
| **Maliyyə hesabatlarının formaları:** | |
| Maliyyə vəziyyəti haqqında hesabat | |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 8 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 9 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 10 |
| **Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər:** | |
| 1. Ümumi məlumat | 11 |
| 2. Əhəmiyyətli uçot qaydalarının icmalı | 11 |
| 3. Uçot siyasətinin tətbiqində rəhbərliyin əhəmiyyətli mühakiməsi | 15 |
| 4. Standartlar, şərhlər və mövcud standartlara düzəlişlər | 16 |
| 5. Qeyri-maddi aktivlər | 17 |
| 6. Əsas vəsaitlər | 17 |
| 7. Ehtiyatlar | 18 |
| 8. Qısamüddətli debitor borcları | 18 |
| 9. Pul vəsaitləri və onların ekvivalentləri | 18 |
| 10. İnvestisiya layihələri üzrə daxil olmuş pul vəsaitlərinin hərəkəti | 18 |
| 11. Kapital ehtiyatları | 18 |
| 12. Qısamüddətli kreditor borcları | 18 |
| 13. Gəlirlər | 18 |
| 14. Əməliyyat xərcləri | 18 |
| 15. Xalis mənfəət (zərər) | 19 |
| 16. Maliyyə aktivləri və öhdəliklər | 19 |
| 17. Öhdəliklər və şərti öhdəliklər | 20 |
| 18. Maliyyə risklərinin idarə edilməsi | 20 |
| 19. Əlaqəli tərəflərlə əməliyyatlar | 21 |
| 20. Hesabat tarixindən sonra baş vermiş hadisələr | 21 |

İÇƏRİŞƏHƏR
DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ

---

**MALİYYƏ HESABATLARININ İSTİFADƏÇİLƏRİNƏ**

**"İçərişəhər" Dövlət Tarix-memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin 31 dekabr 2022-ci il tarixində tamamlanan il üzrə birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının hazırlanmasına və təqdim edilməsinə görə məsuliyyətlə bağlı**

## RƏHBƏRLİYİN BƏYANATI

Bu bəyanat "İçərişəhər" Dövlət Tarix-memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin ("Publik Hüquqi Şəxs") və Publik Hüquqi Şəxsin strukturuna daxil olan qurumların 31.12.2022-ci il tarixində tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun hazırlanmış birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları ("Maliyyə hesabatları") ilə bağlı "Global Audit" MMC-nin ("Müstəqil auditor") hesabatında ("Auditor rəyi") şərh edilən məsələlərə görə Publik Hüquqi Şəxsin rəhbərliyinin məsuliyyətini auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik, Publik Hüquqi Şəxsdə mühasibat uçotunun Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara uyğun aparılmasına və 31 dekabr 2022-cu il tarixinə Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə maliyyə-təsərrüfat əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitaldakı dəyişiklikləri əks etdirən maliyyə hesabatlarının ("Maliyyə hesabatları") MHBS-na uyğun düzgün hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Publik Hüquqi Şəxs 31 dekabr 2022-ci il tarixində tamamlanan il üzrə birləşdirilmiş (konsolidə edilmiş) Maliyyə hesabatlarını qüvvədə olan qanunvericiliyin tələbinə müvafiq olaraq MHBS-na uyğun tərtib etmişdir.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- uyğun mühasibat uçotu prinsiplərinin seçilməsinə və mütəmadi olaraq tətbiq edilməsinə görə;
- maliyyə hesabatlarının MHBS əsasında hazırlanmasına və ya əgər bu standartlardan hər hansı bir əhəmiyyətli kənarlaşmalar varsa, bu kənarlaşmanın maliyyə hesabatlarında açıqlanmasına və izah edilməsinə görə;
- MHBS-nın xüsusi tələbləri ilə uyğunluq istifadəçilərə Publik Hüquqi Şəxsin maliyyə vəziyyəti və məcmu gəlir haqqında müəyyən əməliyyatların, digər hadisələrin və vəziyyətlərin təsirinin anlaşılması üçün kifayət etmədikdə bununla bağlı maliyyə hesabatlarında əlavə açıqlamaların təmin edilməsinə görə;
- məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsinə görə;
- yaxın gələcəkdə Publik Hüquqi Şəxs işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanmasına görə.

Rəhbərlik həmçinin aşağıdakı məsələlərə görə məsuliyyət daşıyır:

- Publik Hüquqi Şəxsin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanmasına, qurulmasına və möhkəmləndirilməsinə görə;

- maliyyə hesabatlarının MHBS-na uyğun olaraq düzgün hazırlanmasına və Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil edilməsinə görə;
- Publik Hüquqi Şəxsdə mühasibat uçotunun Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təşkil edilməsinə və aparılmasına görə;
- mümkün imkanlardan istifadə edərək Publik Hüquqi Şəxsin aktivlərinin etibarlı mühafizəsinin təşkilinə görə;
- saxtakarlıq, yanlışlıq və digər qanunazidd halların müəyyən edilməsinə və qarşısının vaxtında alınmasına görə;
- audit nəticəsində Publik Hüquqi Şəxsin fəaliyyətində müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması üçün təsirli tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə görə.

Rəhbərlik bununla təsdiq edir ki, Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini tələb olunan dəqiqliklə açıqlaya bilən, maliyyə hesabatlarının Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olmasını təmin edən müvafiq və adekvat mühasibat müxabirləşmələrinin doğruluğuna yetərli dərəcədə diqqət yetirilmişdir.

Rəhbərlik həmçinin bəyan edir ki, 31 dekabr 2021-ci il tarixində başa çatan hesabat dövrü üzrə Publik Hüquqi Şəxsin maliyyə hesabatlarının auditi "Global Audit" MMC tərəfindən aparılmış və Müstəqil auditorun 07.12.2022-ci il tarixli hesabatı ilə rəsmiləşdirilmişdir.

Rəhbərlik təsdiq edir ki, 31 dekabr 2022-ci il tarixində başa çatan hesabat dövrünün auditinin aparılması üçün başqa bir auditorla xidmət müqaviləsi bağlanmamışdır və başqa auditor tərəfindən həmin dövr üzrə maliyyə hesabatlarının auditi aparılmamışdır.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin rəhbərliyi adından:

İdarə heyətinin sədri Ş.K.Seyidzadə

Baş mühasib G.N.Əhmədova

İdarə heyətinin sədri Ş.K.Seyidzadə

Baş mühasib G.N.Əhmədova

Azərbaycan Respublikası, Bakı şəhəri

17 oktyabr 2023-cü il

GLOBAL AUDIT

Limited Liability Company

Məhdud Məsuliyyətli Cəmiyyəti

VÖEN/ TIN: 2003615731

Unvan: Azərbaycan Respublikası, AZ1111, Bakı şəhəri, Nəsimi Rayonu, Hənifə Ələsgərov küçəsi 37. Mob: (+994 50) 247 36 14

Address: Azerbaijan Republic, AZ1111, Baku, Nasimi district, Hanifa Alasgarov 37. Mob: (+994 50) 247 36 14

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin Təsisçisinə

## Maliyyə hesabatları üzrə Auditor Rəyi

### Rəy

Biz, bundan sonra "Publik Hüquqi Şəxs" adlandırılacaq "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin (VÖEN 1700711731) və Publik Hüquqi Şəxsin strukturuna daxil olan qurumların 31 dekabr 2022-ci il tarixində təqdim edilən Maliyyə vəziyyəti haqqında hesabatdan (1 nömrəli əlavə), həmin tarixdə başa çatmış il üzrə Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan (2 nömrəli əlavə), Kapitalda dəyişikliklər haqqında hesabatdan (3 nömrəli əlavə) və Pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan (4 nömrəli əlavə), eləcə də Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlərdən ibarət olan birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının ("Maliyyə hesabatları") auditini aparmışıq. Bizim fikrimizcə, Maliyyə hesabatları 31 dekabr 2022-ci il tarixində Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına ("BMHS") uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

### Rəy üçün əsaslar

Biz, auditi Beynəlxalq Audit Standartları ("BAS") əsasında aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan öhdəliklərimiz hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks olunmuşdur. Biz Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsi"nin ("İESBA Məcəlləsi") prinsiplərinə uyğun olaraq Publik Hüquqi Şəxsdən asılı deyilik və digər etik öhdəliklərimizi bu tələblər və İESBA Məcəlləsi əsasında həyata keçirmişik. Hesab edirik ki, əldə etdiyimiz auditor sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiq əsası təmin edir.

### Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair auditor rəyinin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

### Maliyyə hesabatlarına görə rəhbərliyin məsuliyyəti

Rəhbərlik Maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Maliyyə hesabatlarını hazırladıqda rəhbərliyin Publik Hüquqi Şəxsı ləğv etmək və ya onun işini dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa real alternativin olmadığı hallar istisna olmaqla, rəhbərlik Publik Hüquqi Şəxsin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda Publik Hüquqi Şəxsin fəaliyyətinin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına və maliyyə hesabatlarında fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə olunmasına görə məsuliyyət daşıyır. Publik Hüquqi Şəxsdə idarəetməyə məsul şəxslər maliyyə hesabatlarının hazırlanması və təqdimatı prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar. Maliyyə hesabatlarını hazırladıqda rəhbərliyin Publik Hüquqi Şəxsı ləğv etmək və ya onun

işini dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa real alternativin olmadığı hallar istisna olmaqla, rəhbərlik Publik Hüquqi Şəxsin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda Publik Hüquqi Şəxsin fəaliyyətinin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına və maliyyə hesabatlarında fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə olunmasına görə məsuliyyət daşıyır. Publik Hüquqi Şəxsdə korporativ idarəetməyə məsul şəxslər maliyyə hesabatlarının hazırlanması və təqdimatı prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti**

Bizim məqsədimiz bütövlükdə Maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına təminat vermək və rəyimizi əks etdirən auditor hesabatı təqdim etməkdir. Təminat olduqca önəmli olsa da, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit yoxlamasının hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlərdən irəli gələ və bu Maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlara ciddi təsir göstərə bilər. Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur;
- Mövcud şərtlərdə müvafiq olacaq, lakin Publik Hüquqi Şəxsin daxili nəzarətinin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan audit prosedurları hazırlamaq üçün auditə müvafiq daxili nəzarət haqqında anlayış əldə edirik;
- İstifadə olunan uçot siyasətlərinin, uçot smetalarının və rəhbərlik tərəfindən açıqlanan əlaqədar məlumatların müvafiqliyini təhlil edirik;
- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Publik Hüquqi Şəxsin fəaliyyətin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud da bu cür məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Publik Hüquqi Şəxsin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər;
- Maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz auditin və mühüm audit tapıntılarının, o cümlədən audit yoxlaması zamanı daxili nəzarətdə aşkarladığımız mühüm çatışmazlıqların nəzərdə tutulan əhatə dairəsi və zamanlaması ilə bağlı idarəetmə üzrə məsul tərəflərlə əlaqədə oluruq. Müstəqilliyə dair müvafiq etik tələblərə əməl etdiyimizə, müstəqilliyimizə və müvafiq hallarda təhlükəsizlik tədbirləri ilə bağlı bütün münasibətləri və digər məsələləri ünsiyyətdə saxladığımız bəyanatla Publik Hüquqi Şəxsin rəhbərliyinə təqdim edirik. Biz rəhbərliklə müzakirə edilmiş məsələlərdən, əsas audit məsələlərini, cari ilin maliyyə hesabatlarının auditində ən vacib olan məsələləri müəyyənləşdiririk. Belə halları, məsələ ilə əlaqədar olan qanun və qaydalar məsələni ictimaiyyətə açıqlamaya mane olmadığı təqdirdə, biz auditorun hesabatında qeyd edirik və ya nadir hallarda, məsələnin açıqlanmasının ictimai maraqlara mənfi təsirinin ola biləcəyini müəyyənləşdirdikdə, belə məsələlər audit hesabatında təsvir olunmamalıdır.

"Global Audit" MMC-nin direktoru-auditoru A.A.Pirimov

Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən
verilmiş 19.01.2019-cu il tarixli № SA/421 saylı İcazə

"Global Audit" MMC-nin auditor qrupunun üzvü, sərbəst auditor İ.S.Süleyman

Sərbəst auditor İlham Süleyman oğlu Süleyman
Independent Auditor İlham S. Suleyman

Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən
verilmiş 27.04.2022-ci il tarixli SA/309 saylı İcazə

Bakı şəhəri, 17 oktyabr 2023-cü il

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
**31 dekabr 2022-ci il tarixinə**

(Azərbaycan manatı ilə ifadə olunmuşdur)

| | İzahedici qeydin №-si | 2022 | 2021 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 5 | 1 549 614 | 1 495 975 |
| Torpaq, tikili və avadanlıq | 6 | 162 729 446 | 159 535 029 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 10 | 12 728 444 | 9 458 339 |
| Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | | 1 487 958 | 1 487 958 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **178 495 462** | **171 977 301** |
| **Qısamüddətli aktivlər** | | | |
| Ehtiyatlar | 7 | 440 416 | 303 002 |
| Qısamüddətli debitor borcları | 8 | 653 000 | 176 458 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 1 840 336 | 2 548 970 |
| Sair qısamüddətli aktivlər | | - | 118 700 |
| **Cəmi qısamüddətli aktivlər** | | **2 950 477** | **3 158 074** |
| **Cəmi aktivlər** | | **181 445 939** | **175 135 375** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | | 1 000 000 | 1 000 000 |
| Kapital ehtiyatları | 11 | 182 245 040 | 174 252 317 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | (2 002 079) | (121 524) |
| **Cəmi kapital** | | **181 242 961** | **175 130 793** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | | 202 978 | 4 582 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **202 978** | **4 582** |
| **Cəmi öhdəliklər** | | | |
| **Cəmi kapital və öhdəliklər** | | **181 445 939** | **175 135 375** |

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin rəhbərliyi adından:

İdarə heyətinin sədri Ş.K.Seyidzadə

Baş mühasib G.N.Əhmədova

Azərbaycan Respublikası, Bakı şəhəri

17 oktyabr 2023-cü il

11-21-ci səhifələrdə göstərilən izahedici qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## “İÇƏRİŞƏHƏR” DTMQ İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİ

### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ BİRLƏŞDİRİLMİŞ (KONSOLİDƏ EDİLMİŞ) MALİYYƏ HESABATLARI

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
**(xərclərin funksiyaları üzrə)**
**31 dekabr 2022-ci il tarixində tamamlanan il üzrə**

(Azərbaycan manatı ilə ifadə olunmuşdur)

| | İzahedici qeydin №-si | 2022 | 2021 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 14 | 3 592 003 | 1 553 443 |
| Satışın maya dəyəri xərclər | 15 | (2 230 647) | (1 255 265) |
| **Ümumi mənfəət** | | **1 361 356** | **298 178** |
| Sair əməliyyat gəlirləri | 14 | 9 371 661 | 9 352 253 |
| Sair əməliyyat xərcləri | 15 | (10 438 146) | (11 962 111) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **294 871** | **(2 311 680)** |
| Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | | 294 871 | (2 311 680) |
| Mənfəət vergisi | | (190 668) | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 16 | **104 203** | **(2 311 680)** |
| **Digər məcmu gəlir** | 10 | **6 000 000** | **5 963 340** |
| Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | **6 104 203** | **3 651 660** |
| O cümlədən, | | | |
| əsas Publik Hüquqi Şəxsin sahiblərinin mənfəəti (zərəri) | | **6 104 203** | **3 651 660** |

### Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında MƏLUMAT

| | İzahedici qeyd № | 2022 | 2021 |
|---|---|---|---|
| İstifadə edilmiş material ehtiyatları | 15 | (273 534) | (610 066) |
| İşçi heyəti üzrə xərclər | 15 | (7 730 090) | (7 401 883) |
| Amortizasiya ayırmaları | 6 | (1 510 919) | (2 317 536) |
| Digər əməliyyat xərcləri | 15 | (3 154 250) | (2 887 891) |
| **Cəmi əməliyyat xərcləri** | | **(12 668 793)** | **(13 217 376)** |

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin rəhbərliyi adından:

İdarə heyətinin sədri Ş.K Seyidzadə

Baş mühasib G.N.Əhmədova

Azərbaycan Respublikası, Bakı şəhəri

17 oktyabr 2023-cü il

11-21-ci səhifələrdə göstərilən izahedici qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**"İÇƏRİŞƏHƏR" DTMQ İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİ**

**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ BİRLƏŞDİRİLMİŞ (KONSOLİDƏ EDİLMİŞ) MALİYYƏ HESABATLARI**

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 dekabr 2022-ci il tarixinə**

(Azərbaycan manatı ilə ifadə olunmuşdur)

| | İzahedici qeydin №-si | Nizam-namə kapitalı | Yenidən qiymətlən-dirmə üzrə ehtiyat | Kapital ehtiyatları (digər ehtiyatlar) | Bölüş-dürül-məmiş mənfəət (ödənil-məmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | 11 | 1 000 000 | 151 277 162 | 19 575 698 | (373 727) | 171 479 133 |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | | (452 563) | 252 203 | (200 360) |
| Sair məcmu gəlir | | | | 3 852 020 | | 3 852 020 |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | 3 399 457 | 252 203 | 3 651 660 |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | | 1 000 000 | 151 277 162 | 22 975 155 | (121 524) | 175 130 793 |
| Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | 2 119 285 | (2 111 320) | 7 965 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | (126 562) | 230 765 | 104 203 |
| Sair məcmu gəlir | | | | 6 000 000 | | 6 000 000 |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | 7 992 723 | (1 880 555) | 6 112 168 |
| **Hesabat dövrünün sonuna qalıq** | | 1 000 000 | 151 277 162 | 30 967 878 | (2 002 079) | 181 242 961 |

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin rəhbərliyi adından:

İdarə heyətinin sədri S.K.Seyidzadə

Baş mühasib G.N.Əhmədova

Azərbaycan Respublikası, Bakı şəhəri
17 oktyabr 2023-cü il

11-21-ci səhifələrdə göstərilən izahedici qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**“İÇƏRİŞƏHƏR” DTMQ İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİ**

**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ BİRLƏŞDİRİLMİŞ (KONSOLİDƏ EDİLMİŞ) MALİYYƏ HESABATLARI**

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT (BİRBAŞA METOD)**
**31 dekabr 2022-ci il tarixinə**

(Azərbaycan manatı ilə ifadə olunmuşdur)

| | İzahedici qeydin №-si | 2022 | 2021 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | 9 | 3 502 562 | 1 609 396 |
| Royaltilər, yığımlar və komisyon haqları üzrə daxilolmalar | | 171 124 | |
| Digər gəlirlərdən daxilolmalar | 9, 10 | 15 374 527 | 15 315 593 |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | **19 048 213** | **16 924 989** |
| Mallar və xidmətlərə görə xaricolmalar | | (3 266 162) | (2 140 603) |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | | (7 671 063) | (7 373 113) |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | (252) | (666 730) |
| Digər ödənişlərə görə xaricolmalar | | (150 376) | (348 695) |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | **(11 087 853)** | **(10 529 141)** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **7 960 360** | **6 395 848** |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | (8 668 994) | (5 849 445) |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **(708 634)** | **546 403** |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **2 548 970** | **2 002 567** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | (708 634) | 546 403 |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | | **1 840 336** | **2 548 970** |

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin rəhbərliyi adından:

İdarə heyətinin sədri Ş.K.Seyidzadə

Baş mühasib G.N.Əhmədova

Azərbaycan Respublikası, Bakı şəhəri
17 oktyabr 2023-cü il

11-21-ci səhifələrdə göstərilən izahedici qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "İÇƏRİŞƏHƏR" DTMQ İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİ

## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ BİRLƏŞDİRİLMİŞ (KONSOLİDƏ EDİLMİŞ) MALİYYƏ HESABATLARINA

## ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ VƏ İZAHEDİCİ QEYDLƏR

### 1. ÜMUMİ MƏLUMAT

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsi ("Publik Hüquqi Şəxs") "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin əsasında yaradılmış publik hüquqi şəxsdir.

**Publik Hüquqi Şəxsin əsas fəaliyyət sahəsi**

Publik Hüquqi Şəxsin əsas fəaliyyətinə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun və "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində yerləşən tarix və memarlıq abidələrinin qorunmasının və ərazi üçün müəyyən edilmiş rejimin saxlanmasının təmin edilməsi üçün elmi, tarixi və mədəni cəhətdən öyrənilməsi, təbliği, məqsədyönlü istifadəsinin təşkili, abidələrin bərpasının, qorunub saxlanmasının və toxunulmazlığının təmin edilməsi və Qala ərazisində turizmin inkişafı daxildir. Nizamnaməsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün Publik Hüquqi Şəxs sahibkarlıq fəaliyyətini həyata keçirir.

16.07.2007-ci il tarixində Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən Publik Hüquqi Şəxsə 1700711731 saylı vergi ödəyicisinin eyniləşdirilməsi nömrəsi (VÖEN) verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturunun təsdiq edilməsi və işçi sayının müəyyən edilməsi barədə" 14 noyabr 2017-ci il tarixli Qərarına uyğun olaraq "İçərişəhər" DTMQ İdarəsinin strukturuna aşağıdakı qurumlar daxildir:

- "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparatı (şöbələr və sektorlar).
- "İçərişəhər" Muzey Mərkəzi
- Mənzil-kommunal və Təmir Xidməti
- Elmi-istehsalat Bərpa Emalatxanası
- Elmi-mədəni Mərkəz
- Marionet Teatrı
- Tahir Salahovun Ev-muzeyi
- Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi
- Ənənəvi İncəsənət Mərkəzi

31.12.2021-ci il tarixinə Publik Hüquqi Şəxsin nizamnamə kapitalı 1 000 000,00 manat təşkil etmişdir.

**Publik Hüquqi Şəxsin hüquqi ünvanı**

Publik Hüquqi Şəxsin hüquqi ünvanı: AZ1095, Bakı şəhəri, Səbail rayonu, Asəf Zeynallı küçəsi, 20/85

**Rəhbərlik**

İdarə heyətinin sədri Əsgər Əyyub oğlu Ələkbərov (bu vəzifədə 12.05.2017-ci il tarixindən 03.03.2022-ci il tarixinədək işləmişdir);

İdarə heyətinin sədri Şahin Kamil oğlu Seyidzadə (bu vəzifədə 03.03.2022-ci il tarixindən indiyədək işləyir);

Maliyyə direktoru Kəmalə Əlyar qızı Əliyeva (bu vəzifədə 19.12.2017-ci il tarixindən 05.07.2022-ci il tarixinədək işləmişdir);

Maliyyə direktoru Şəfəq Zaqif qızı Bayramova (bu vəzifədə 06.07.2022-ci il tarixindən indiyədək işləyir);

Baş mühasib Gülarə Nadir qızı Əhmədova (bu vəzifədə 12.03.2021-ci il tarixdən indiyədək işləyir);

## 2. ƏHƏMİYYƏTLİ UÇOT QAYDALARININ İCMALI

### Təqdimatın əsasları

Təqdim olunan maliyyə hesabatları ("Maliyyə hesabatları") 01 yanvar 2022-ci il tarixindən 31 dekabr 2022-ci il tarixinədək olan hesabat ilini əhatə edir. Maliyyə hesabatlarında göstəricilər Azərbaycan manatı ilə ifadə olunmuşdur.

Uçot siyasətinin maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasətinin müddəaları təqdim edilən bütün hesabatlarda ardıcıl tətbiq edilmişdir.

Publik Hüquqi Şəxsdə mühasibat uçotu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa və qüvvədə olan normativ-hüquqi aktlara uyğun olaraq aparılır. Büdcə vəsaitlərinin istifadəsinin uçotunun aparılması məqsədilə "SİNAM" kompüter proqramı tətbiq olunur.

Təqdim olunan Maliyyə hesabatları Publik Hüquqi Şəxsin əsas mühasibat uçotu registrlərində olan qeydlərin əsasında hazırlanmışdır. Beynəlxalq Mühasibat Uçotu Standartlarına ("BMUS") uyğun olaraq bütün əhəmiyyətli ölçülərə riayət etmək məqsədilə Maliyyə hesabatlarına zəruri düzəlişlər edilmişdir. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəzi aktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir.

Maliyyə hesabatlarında aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir. Bu qiymətləndirmələr və ehtimallar rəhbərliyin qısamüddətli hadisə və hərəkətlər barədə məlumatlarına əsaslanır, sonda nəticələr həmin qiymətləndirmələrdən və ehtimallardan fərqli ola bilər. Maliyyə hesabatlarının MHBS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki, Publik Hüquqi Şəxsin uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın.

Bu Maliyyə hesabatları tarixi xərclər konsepsiyası və Publik Hüquqi Şəxsin fəaliyyətinin fasiləsizliyi ehtimalına əsasən hazırlanır.

### Xarici valyuta qalıqlarının çevrilməsi

Xarici valyutalar həmin valyuta ilə aparılan əməliyyatların baş verdiyi tarixlərdə qüvvədə olan müvafiq valyuta məzənnələrini (spot məzənnəsi) tətbiq etməklə funksional valyutaya çevrilir. Bu əməliyyatlar üzrə hesablamalardan və monetar maddələrin hesabat ilinin sonuna olan məzənnə ilə təkrar qiymətləndirilməsindən yaranan müsbət məzənnə fərqi (gəlirlər) və mənfi məzənnə fərqi (zərərlər) müvafiq olaraq mənfəətdə və ya zərərlərdə tanınır. Ədalətli dəyərin müəyyən edildiyi tarixdə məzənnələrdən istifadə etməklə çevrilən ədalətli dəyərlə ölçülmüş qeyri-monetar maddələrdən başqa qeyri-monetar maddələr ilin sonuna təkrar çevrilmir və ilkin maya dəyəri ilə qiymətləndirilir (əməliyyat tarixində məzənnələrdən istifadə etməklə çevrilir).

31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci il tarixlərinə Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi Avro və ABŞ dollarının Azərbaycan manatı ilə rəsmi məzənnəsi aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| 1 Avro – AZN | 1,8114 | 1,9265 |
| 1 ABŞ dolları – AZN | 1,7000 | 1,7000 |

### Mühasibat uçotu prinsiplərində dəyişikliklər

9 saylı MHBS-nı 1 yanvar 2021-ci il tarixində və həmin tarixdən sonrakı dövlər üçün 39 saylı BMUS-ı əvəz edir. Publik Hüquqi Şəxsin, 9 saylı MHBS-nın əhatə dairəsinə daxil olan maliyyə alətləri üçün müqayisəli məlumatı yenidən təqdim etmək zərurəti yaranmamışdır.

### Təsnifləşdirmə və qiymətləndirmə

9 saylı MHBS-yə əsasən bütün maliyyə aktivləri ilkin tanınma zamanı sair məcmu gəlirdə ədalətli dəyərlə ("SMGƏD") və ya mənfəət və ya zərərdə ədalətli dəyərlə ölçülən aktivlər kimi ("MZƏD") kimi təsnifləşdirilir. Maliyyə aktivi, həm də aşağıdakı şərtləri yerinə yetirirsə və MZƏD-də göstərilmirsə, amortizasiya edilmiş dəyərlə ölçülür:

- "yığılmaq üçün saxlanılan" əsasda idarə olunan alətlər; və
- maliyyə aktivinin müqavilənin şərtləri müəyyən edilmiş tarixlərdə pul vəsaitlərinin hərəkətinə, əsas pul vəsaitlərinin ödənilməməsi və əsas məbləğ üzrə mənfəətin artmasına səbəb olur.

Borc aləti SMGƏD-də yalnız aşağıdakı şərtlərə cavab verirsə və MZƏD-də göstərilmirsə ölçülür:

- aktivin məqsədi həm müqaviləli pul vəsaitlərinin hərəkəti toplanması, həmdə maliyyə aktivlərinin satışı ilə əldə edilən biznes modeli çərçivəsində keçirilir; və
- maliyyə aktivinin müqavilənin şərtləri müəyyən edilmiş tarixlərdə pul vəsaitlərinin hərəkətinə, əsas pul vəsaitlərinin ödənilməmiş əsas məbləğinin ödənilməsinə səbəb olur.

Ticarət üçün nəzərdə tutulmayan kapital investisiyalarının ilkin tanınması zamanı Publik Hüquqi Şəxs qətiyyətlə SMG-də ədalətli dəyərdə sonrakı dəyişiklikləri təqdim edə bilər. Bu seçki investisiya yatırımı əsasında aparılır. Bütün digər maliyyə aktivləri MZƏD-də ölçülmüş kimi təsnifləşdirilir.

**Dəyərdəndüşmə**

Publik Hüquqi Şəxs, gözlənilən itkiləri ("Gİ") üzrə amortizasiya olunmuş dəyərdə olan maliyyə aktivləri üzrə dəyərsizləşmə ehtiyatını tanıyır. Publik Hüquqi Şəxs ilk 12 aylıq Gİ ölçülməsinin başlanmasından sonra kredit riskinin əhəmiyyətli dərəcədə artmadığı maliyyə alətləri istisna olmaqla, ömür boyu Gİ-yə bərabər olan məbləğdə dəyərsizləşmə ehtiyatını ölçür.

**Əsas vəsaitlər**

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:

(a) mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;
(b) bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Ədalətli dəyər – yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticarət sövdələşmələrində aktivin mübadilə edildiyi dəyərdir.

Binalar üzrə ədalətli dəyər müvafiq qaydada vaxtaşırı keçirilən (adətən, üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir. İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedçinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Publik Hüquqi Şəxsə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xərcləri o dövrün "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatı"nda əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmiş olsun.

Torpağın və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirmə artımı hədləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları "Mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilir. Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

Avadanlıq, yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla ilkin dəyərdə qeydə alınır. İlkin dəyər tikinti xərcləri və ya alış qiymətindən, o cümlədən idxal rüsumları və geri qaytarılmayan vergilərdən və aktivin istifadəyə yararlı vəziyyətə gətirilməsinə birbaşa aid olan digər xərclərdən ibarətdir. Hər hansı güzəştlər və geri qaytarılmış məbləğlər tikinti xərcləri, yaxud alış qiymətindən çıxılır. Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Avadanlığın əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır. Avadanlığın bütün növləri lazım olduqda, yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə zərəri çıxmaqla (əgər varsa) ilkin dəyərdə qeydə alınır.

Hər bir hesabat tarixində rəhbərlik, avadanlıq üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Avadanlıq dəyərsizləşdikdə, avadanlıq satış xərcləri çıxmaqla onların ədalətli dəyəri ilə istifadə dəyərindən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma məcmu gəlir hesabatında qeydə alınır. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər-hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərər bərpa edilir.

**Əsas vəsaitlərin amortizasiyası**

Avadanlıq üzrə amortizasiya bərabər çıxılmalar metodu ilə, yəni avadanlığın təxmin edilən faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır.

Aktiv artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Publik Hüquqi Şəxsin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Publik Hüquqi Şəxs aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri və faydalı xidmət müddəti lazım olduqda hər bir balans tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

**Qeyri-maddi aktivlər**

Publik Hüquqi Şəxsin qeyri-maddi aktivləri müəyyən istifadə müddətinə malikdir və bura kapitallaşdırılmış kompüter proqram təminatı və lisenziyalar daxildir. Müvafiq proqram təminatı ilə birbaşa əlaqədə olaraq inkişaf xərcləri artan iqtisadi səmərəliliyin mümkün olduğu zaman Publik Hüquqi Şəxsin qeyri-maddi aktivi kimi qeyd edilir. Kapitallaşdırılmış xərclər proqram təminatının inkişaf etdirilməsi ilə əlaqəli işçi heyətinə edilən ödənişləri və müvafiq olaraq digər xərcləri özündə cəmləşdirir. Komputer proqram təminatı, onların təmiri və s. ilə əlaqəli olan bütün digər xərclər baş verdiyi an xərcə silinir.

**Qeyri-maddi aktivlərin amortizasiyası**

Qeyri-maddi aktivlərin amortizasiyası aktivin təxmin edilən faydalı xidmət müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | | |
|---|---|---|
| Lisenziya və proqram təminatı | Faydalı istifadə müddəti: | 10 il |

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri müəyyən nağd pula çevrilə bilən və dəyəri əhəmiyyətsiz dəyişiklik riskinə məruz qalan maddələrdir. Maliyyə vəziyyəti haqqında hesabat pul vəsaitlərinin milli valyuta ilə ekvivalentlərini əks etdirir, ilkin olaraq və sonradan ədalətli dəyərlə uçota alınır.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitlərinin ekvivalentləri bank hesablarında olan pul vəsaitlərinin qalıqlarının milli valyuta ilə ekvivalentləri və Publik Hüquqi Şəxsin kassasındakı nağd pul vəsaitləri hesab olunur.

**Maliyyə alətləri**

**İlkin qiymətləndirilmə və uçotdan silinmə**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri Publik Hüquqi Şəxsin maliyyə alətinin müqavilənin müddəaları üzrə tərəfə verildiyi halda tanınır və ilkin olaraq ədalətli dəyər üstəgəl əməliyyat xərcləri ilə ölçülür. Maliyyə aktivləri maliyyə aktivi ilə bağlı pul vəsaitlərinin hərəkəti üzrə müqavilə hüquqlarının müddəti bitdikdə və ya maliyyə aktivi və bütün əhəmiyyətli risklər və faydalar ötürüldükdə uçotdan silinir. Maliyyə öhdəliyi ödənildiyi, dayandırıldığı, ləğv edildiyi ya da müddəti bitdiyi halda uçotdan silinir.

Maliyyə aktivləri və maliyyə öhdəlikləri sonradan aşağıda təsvir edildiyi kimi ölçülür.

**Maliyyə aktivlərinin təsnifatı və sonrakı qiymətləndirilməsi**

Sonrakı qiymətləndirmənin məqsədi üzrə maliyyə aktivləri kreditor və debitor borclarına bölünür. Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərlərdə əks etdirilmiş maliyyə aktivlərindən başqa bütün maliyyə aktivləri maliyyə aktivinin və ya maliyyə aktivləri mərkəzinin dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmamasını müəyyən etmək üçün ən azı hər hesabat tarixində dəyərsizləşmə üzrə təhlil edilir.

Dəyərsizləşməni müəyyən etmək üçün müxtəlif amillər aşağıda təsvir edilmiş hər maliyyə aktivinin kateqoriyası üzrə tətbiq edilir.Mənfəət və ya zərərlərdə tanınan maliyyə aktivləri ilə bağlı bütün gəlirlər və xərclər "inzibati və ümumi xərclər"də əks etdirilmiş, ticarət debitor borclarının dəyərsizləşməsindən başqa "maliyyə xərcləri –xalis" və ya "digər gəlir/(xərc)-xalis"də əks etdirilir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi və inkasso edilə bilməməsi**

Müəyyən maliyyə aktivinin dəyərsizləşməsinə dair obyektiv sübutun olub-olmamasını müəyyən etmək üçün hər hesabat tarixində qiymətləndirmə aparılır. Bu cür sübut mövcud olduğu halda bütün dəyərsizləşmə zərərləri gəlir haqqında

hesabatda tanınır. Maya dəyərində uçota alınmış aktivlər üzrə dəyərsizləşmə balans dəyəri və oxşar maliyyə aktivinin cari bazar gəlirlilik normasında diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış dəyəri arasındakı fərqdir.

**Maliyyə öhdəliklərinin təsnifatı və sonrakı qiymətləndirilməsi**

Maliyyə öhdəlikləri ticarət və digər öhdəliklərdən ibarətdir. Maliyyə öhdəlikləri sonradan effektiv faiz metodu istifadə olunmaqla amortizasiya olunmuş dəyərlə ölçülür. Bütün faizlə əlaqədar ödənişlər "maliyyə xərcləri" daxilindədir.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Yalnız tanınan məbləği əvəzləşdirmək üçün qanuni qüvvəyə minmiş qarşılıqlı əvəzləşdirmə hüququ olduğu və xalis əsasla əvəzləşdirmək və ya eyni zamanda aktivi realizə etmək və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda maliyyə aktivləri və öhdəlikləri əvəzləşdirilir və xalis məbləğ "Maliyyə vəziyyəti haqqında hesabat"da göstərilir.

**İşçilərin qısamüddətli mükafatlandırılması**

İşçilərin qısa müddətli mükafatlandırılması xərcləri (xidmətdən sonra on iki ay ərzində olan) xidmətin göstərildiyi və diskont edilmədiyi dövrdə tanınır. Ödənişli məzuniyyətlərin gözlənilən xərcləri işçilərin hüququnu artıran xidmətlər gördüyü və ya yığılmayan məzuniyyətlər zamanı isə məzuniyyətin baş verdiyi halda xərc kimi tanınır.

**Ehtiyatlar və şərti öhdəlikər**

Ehtiyatlar cari öhdəliklərin keçmiş hadisələr səbəbindən Publik Hüquqi Şəxsə iqtisadi mənbələrin məxaricinə səbəb ola bildiyi halda və bu məxaricin məbləğləri etibarlı şəkildə hesablana bildiyi halda tanınır. Məxaricin müddəti və məbləği hələ də qeyri-müəyyən ola bilər. Cari öhdəlik keçmiş hadisələrin (məsələn, hüquqi mübahisələrin və ya yüklü edilmiş müqavilələrin) səbəb olduğu hüquqi və konstruktiv öhdəliklərdən yarana bilər. Ehtiyatlar hesabat tarixində mövcud olan ən etibarlı sübuta, o cümlədən cari öhdəliklə bağlı risklərə və qeyri-müəyyənliklərə əsaslanan cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan hesablanmış məsrəf ilə qiymətləndirilir. Oxşar öhdəliklər olduğu halda öhdəliyin ödənilməsində məxaricin tələb olunacağı ehtimalı bütün öhdəliklər sinfi nəzərə alınmaqla müəyyən edilir. Ehtiyatlar onların diskontlaşdırılmış dəyərinə qədər diskont edilir. Burada pulların vaxt dəyəri əhəmiyyətlidir. Publik Hüquqi Şəxsin üçüncü tərəfdən faktiki olaraq toplaya biləcəyi öhdəliklə bağlı hər hansı ödəniş ayrıca aktiv kimi tanınır. Lakin bu aktiv əlaqəli ehtiyatın məbləğindən artıq olmamalıdır. Bütün ehtiyatlar hər hesabat tarixində təhlil edilir və cari öhdəliklər ən yaxşı hesablanmış qiyməti əks etdirmək üçün uyğunlaşdırılır. Cari öhdəliklərin nəticəsində iqtisadi mənbələrin mümkün məxaricinin mümkün olmaması və ya çox zəif olması ehtimal edildiyi hallarda müəssisələrin birləşməsi zamanı güman olunma halı istisna olaraq öhdəlik tanınmır.

**Gəlirlər**

2022-ci ildə Publik Hüquqi Şəxsin gəlirləri Publik Hüquqi Şəxsin strukturuna daxil olan qurumların əsas fəaliyyətinin təmin edilməsi və Publik Hüquqi Şəxsin aparatının saxlanma xərclərinin örtülməsi məqsədilə dövlət büdcəsindən ayrılmış vəsaitlərdən, büdcədənkənar əməliyyatlardan əldə edilmiş vəsaitlərdən və investisiya layihələri üzrə məqsədli maliyyələşdirmə şəklində dövlət büdcəsindən ayrılmış pul vəsaitlərdən ibarət olmuşdur. Gəlirlər endirimlər və ticarət diskontları istisna olmaqla Publik Hüquqi Şəxs tərəfindən göstərilmiş xidmətlərə görə alınmış və ya alınacaq ödənişin ədalətli dəyərinə istinad ilə ölçülür.Publik Hüquqi Şəxs əməliyyatın mahiyyətini əks etdirmək məqsədilə satış əməliyyatının hər ayrıca müəyyən edilə bilən komponentinə aşağıda göstərilmiş gəlirin tanınması meyarını tətbiq edir. Bu əməliyyatlardan alınan ödəniş hər komponentin müvafiq ədalətli dəyərini nəzərə almaqla ayrıca müəyyən edilə bilən komponent üzrə bölüşdürülür. Gəlirin məbləği etibarlı şəkildə ölçülə bildiyi, toplanma mümkün olduğu, çəkilmiş və ya çəkiləcək xərclər etibarlı şəkildə ölçüldüyü və Publik Hüquqi Şəxsin hər bir müxtəlif fəaliyyəti üzrə meyar təmin edildiyi halda gəlir tanınır. Bu fəaliyyətə xas olan tanınma meyarı aşağıda təsvir edilib.

**Xidmətlərin göstərilməsi**

Xidmətlərin göstərilməsindən əldə edilən gəlir, gəlirin etibarlı şəkildə ölçülməsi, toplanması ehtimalı, çəkilmiş xərclər və ya xərclər etibarlı şəkildə ölçülə biləcəyi təqdirdə tanınır. Xidmət haqqı və digər gəlirlər gəlir kimi tanınır ki, xidmətlər faktiki olaraq göstərilmiş olsun.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİNDƏ RƏHBƏRLİYİN ƏHƏMİYYƏTLİ MÜHAKİMƏSİ

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aktivlərin, öhdəliklərin, gəlirin və xərclərin tanınması və qiymətləndirilməsinə dair bir sıra mühakimələr, hesablamalar və fərziyyələr irəli sürür.Publik Hüquqi Şəxsin uçot siyasətlərinin tətbiqində maliyyə hesabatlarına ən mühüm təsir edən rəhbərliyin əhəmiyyətli mühakimələri aşağıda göstərilib:

**Təxirə salınmış aktivlərin tanınması**

Təxirə salınmış vergi aktivlərinin tanınması dərəcəsi çıxıla bilən müvəqqəti fərqlərin istifadə oluna bilməsi üçün Publik Hüquqi Şəxsin gələcəkdə vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının qiymətləndirilməsinə əsaslanır. Əlavə olaraq, əhəmiyyətli mühakimə istənilən hüquqi və ya iqtisadi məhdudiyyətlərin təsirinin və ya vergi qanunvericiliyindəki müxtəlif qeyri-müəyyənliklərin qiymətləndirilməsində tələb olunur.

**Hesablamanın qeyri-müəyyənliyi**

Aktivlərin, öhdəliklərin, gəlirin və xərclərin tanınması və qiymətləndirilməsi üzrə ən əhəmiyyətli təsirə malik olan hesablamalar və fərziyyələr haqqında məlumat aşağıda göstərilib. Faktiki nəticələr əhəmiyyətli dərəcədə fərqlənə bilər.

**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

Dəyərsizləşmə zərəri aktivin və ya pul vəsaitlərini yaradan vahidin balans dəyərinin bərpa edilə bilən məbləğindən artıq olduğu məbləğdə tanınır. Bərpa edilə bilən məbləği müəyyən etmək üçün rəhbərlik hər bir pul vəsaitlərini yaradan vahiddən pul vəsaitlərinin gözlənilən gələcək hərəkətini qiymətləndirir və həmin pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış dəyərini hesablamaq məqsədilə münasib faiz dərəcəsini müəyyən edir. Pul vəsaitlərinin gözlənilən gələcək hərəkətinin qiymətləndirilməsi prosesində rəhbərlik gələcək əməliyyat nəticələri haqqında fərziyyələr irəli sürür. Bu fərziyyələr gələcək dövrdlə baş verəcək hadisələrə və hallara aiddir. Faktiki nəticələr dəyişə bilər və növbəti maliyyə ili ərzində Publik Hüquqi Şəxsin aktivlərində əhəmiyyətli düzəlişlərə səbəb ola bilər.

**Köhnəlmiş aktivlərin faydalı ömrü**

Hər bir hesabat tarixində, qeyri-maddi aktivlərin faydalı ömrü qiymətləndirilir, gözlənilən faydası müəyyən edilir.

## 4. STANDARTLAR, ŞƏRHLƏR VƏ MÖVCUD STANDARTLARA DÜZƏLİŞLƏR

**2022-ci ildə qüvvədə olan standartlar, şərhlər və mövcud standartlara düzəlişlər**

Aşağıdaki yeni standartlara uyğun olaraq, mövcud standartlara yenidən baxılmış və düzəlişlər verilmişdir, hansı ki, 1 yanvar 2022-ci il tarixindən başlayaraq effektiv hesab edilir və Publik Hüquqi Şəxs tərəfindən qəbul edilimişdir:

| Standartın nömrəsi | Standartın adı | Qüvvəyə minmə tarixi |
|---|---|---|
| MHBS 16 | Covid-19 ilə əlaqədar icarə güzəştləri | 1 yanvar 2021 |
| MHBS 3 | Konseptual çərçivəyə istinad edilməsi | 1 yanvar 2022 |
| BMUS 37 | BMUS 37-yə edilmiş düzəlişlər. Ağır şərtli müqavilələr – Müqavilənin yerinə yetirilməsinin dəyəri | 1 yanvar 2022 |
| BMUS 16 | Torpaq, Tikili və Avadanlıq: İstifadədən əvvəl gəlir | 1 yanvar 2022 |
| **2018-2020-ci illər dövrü üzrə illik təkmilləşdirmələr** | | |
| MHBS 10 və BMUS 28 | Bir sərmayəçi ilə asılı və ya ortaq şirkət arasında aktivlərin satışı və ya qatqısı | 1 yanvar 2022 |
| BMUS 1 və MHBS Təcrübə Bəyanatı 2 | Uçot Siyasətinin Açıqlanması | 1 yanvar 2022 |
| BMUS 8 | Uçot Siyasətinin Açıqlanması və Uçot Təxminlərinin Tərifi | 1 yanvar 2022 |
| BMUS 12 | Bir əməliyyatdan yaranan aktiv və öhdəliklərlə bağlı təxirə salınmış vergi | 1 yanvar 2022 |

**Hələ qüvvəyə minməmiş standartlar, şərhlər və mövcud standartlara düzəlişlər**

Maliyyə hesabatlarının təsdiq olunduğu tarixə dərc olunmuş, lakin qüvvəyə minməmiş aşağıdakı standartlar, şərhlər və mövcud standartlara düzəlişlər hələ Publik Hüquqi Şəxs tərəfindən qəbul edilməmişdir:

| Standartın nömrəsi | Adı | Qüvvəyə minmə tarixi |
|---|---|---|
| MHBS 17 | Sığorta müqavilələri | 1 yanvar 2023 |
| BMUS 1 | Öhdəliklərin cari və ya uzunmüddətli kimi təsnifatı | 1 yanvar 2023 |

**MHBS 16 İcarə**

MHBS 16 İcarə standartında edilmiş dəyişikliklər icarəçilər tərəfindən "Covid-19" pandemiyasının birbaşa nəticəsi olaraq meydana çıxan, lakin icarə dəyişiklikləri hesab edilməyən (icarə dəyişikliklərinin mövcud olmadığını sübut edən müəyyən şərtlərə cavab verdiyi halda) icarə güzəştlərini hesaba almağa imkan verən praktiki məqsədəuyğunluğu təmin edir.

**MHBS 17 Sığorta müqavilələri**

MHBS 17 Sığorta müqavilələri standartı, bağlanılmış sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Bu, həm də oxşar prinsiplərin bağlanmış təkrarsığorta müqavilələrinə və verilmiş ixtiyari iştirak xüsusiyyətləri olan investisiya müqavilələrinə tətbiq edilməsini tələb edir. Məqsəd şirkətlərin həmin müqavilələri vicdanla təmsil etmələri üçün müvafiq məlumatların verilməsini təmin etməkdir. Bu məlumat, maliyyə hesabatlarının istifadəçilərinə MHBS 17 standartı çərçivəsində sığorta müqavilələrinin Publik Hüquqi Şəxsin maliyyə vəziyyətinə, maliyyə fəaliyyətinə və pul vəsaitlərinin hərəkətinə təsirini qiymətləndirməyə əsas verir.

**BMUS 1 Maliyyə hesabatlarının təqdimatı**

BMUS 1-ə edilmiş düzəlişlər "Maliyyə hesabatlarının təqdimatı" öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatda cari və ya uzunmüddətli kimi göstərilməsinə dair tələbləri aydınlaşdırmaq məqsədilə edilmişdir. Bu dəyişikliklərlə öhdəliyin yerinə yetirilməsinin mənası da aydınlaşdırılır.

**BMUS 16 Torpaq, tikili və avadanlıq**

BMUS 16 Torpaq, tikili və avadanlıq standartına edilmiş düzəlişlər, Publik Hüquqi Şəxsdən torpaq, tikili və avadanlıq təyinatı üzrə isifadə üçün hazırlanarkən istehsal olunan əşyaların satışından əldə olunan gəlirləri və əlaqədar xərcləri aktivin maya dəyərindən çıxmaq əvəzinə mənfəət və zərərlərin tərkibində tanımağı tələb edir.

**MHBS 3 Biznes birləşmələri**

MHBS 3 Biznes birləşmələri standartına edilmiş düzəlişlər, şirkətlərin birləşməsi üçün mühasibat uçotunun aparılması tələblərini dəyişdirmədən Maliyyə Hesabatı üçün Konseptual Çərçivəyə bir istinad verir.

**BMUS 37 Ehtiyatlar, şərti öhdəliklər və şərti aktivlər**

BMUS 37 Ehtiyatlar, şərti öhdəliklər və şərti aktivlər standartına edilmiş düzəlişlər bir müqavilənin zərərli olub-olmadığını qiymətləndirərkən Publik Hüquqi Şəxsin nəzərə almalı olduğu xərcləri müəyyənləşdirir.

## 5. QEYRİ-MADDİ AKTİVLƏR

| | 2022 | 2021 |
|---|---|---|
| Qeyri-maddi aktivlər | 1 549 614 | 1 495 975 |

## 6. ƏSAS VƏSAİTLƏR

| | Binalar, tikililər və qurğular | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Biloloji aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **01.01.2021-ci il tarixinə qalıq** | **156 052 444** | **3 035 329** | **328 947** | **1 601 566** | **137 762** | **161 156 048** |
| Daxilolmalar | 896 400 | 9 148 | | 56 015 | | **961 563** |
| Silinib | (30 542) | (350 422) | (122 985) | (222 574) | | **(726 523)** |
| Silinən aktivlərin qalıq dəyəri | 14 890 | 158 182 | 122 985 | 165 420 | | **461 477** |
| Amortizasiya ayırmaları | (1 615 040) | (422 227) | (67 783) | (212 486) | | **(2 317 536)** |
| **31.12.2021-ci il tarixinə qalıq** | **155 318 152** | **2 430 010** | **261 164** | **1 387 941** | **137 762** | **159 535 029** |
| Daxilolmalar | 2 344 523 | 2 231 671 | 61 989 | 103 506 | | **4 741 689** |
| Əvəzsiz daxil olub | | | | 200 | | **200** |
| Silinib | (31 392) | (97 851) | | (83 594) | | **(212 837)** |
| Silinən aktivlərin qalıq dəyəri | 19 398 | 90 428 | | 66 459 | | **176 285** |
| Amortizasiya ayırmaları | (568 696) | (589 419) | (68 647) | (284 158) | | **(1 510 920)** |
| **31.12.2022-ci il tarixinə qalıq** | **157 081 985** | **4 064 839** | **254 506** | **1 190 354** | **137 762** | **162 729 446** |

## 7. EHTİYATLAR

| | 2022 | 2021 |
|---|---|---|
| | 440 416 | 303 002 |

## 8. QISAMÜDDƏTLİ DEBİTOR BORCLARI

| | 2022 | 2021 |
|---|---|---|
| Qısamüddətli debitor borcları, cəmi: | 653 000 | 176 458 |

## 9. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 2022 | 2021 |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri, cəmi: | 1 840 336 | 2 548 970 |

## 10. İNVESTİSİYA LAYİHƏLƏRİ ÜZRƏ DAXİL OLMUŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ

| | 2022 | 2021 |
|---|---|---|
| İlin əvvəlinə bank hesabında qalıq | 449 859 | 11 081 |
| İlin əvvəlinə akkreditiv hesabında qalıq | 1 606 548 | 364 094 |
| İl ərzində maliyyələşmə daxil olub | 6 000 000 | 6 000 000 |
| Akkreditiv hesabına köçürülüb | - | (1 242 454) |
| Kapitallaşma (xidmətin dəyəri, qeyri-rezidentin ÖMV, ƏDV): | (7 984 459) | (4 282 108) |
| Büdcəyə qaytarılıb | - | (36 660) |
| İlin sonuna bank hesabında qalıq | 71 948 | 449 859 |
| İlin sonuna akkreditiv hesabında qalıq | - | 1 606 548 |

## 11. KAPİTAL EHTİYATLARI

| | 2022 | 2021 |
|---|---|---|
| Nizamnamə kapitalı | 1 000 000 | 1 000 000 |
| Kapital ehtiyatları | 182 245 040 | 174 252 317 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | (2 002 079) | (121 524) |
| **Cəmi kapital:** | **181 242 961** | **175 130 793** |

## 12. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

| | 2022 | 2021 |
|---|---|---|
| Qısamüddətli kreditor borcları | 202 978 | 4 582 |

## 13. GƏLİRLƏR

| | 2022 | 2021 |
|---|---|---|
| **Gəlirlər, cəmi:** | **12 963 664** | **10 905 696** |
| o cümlədən: Xidmətlərin göstərilməsindən | 3 592 003 | 1 553 443 |
| Sair əməliyyat gəlirləri (dövlət büdcəsindən məqsədli maliyyələşmə) | 9 371 661 | 9 352 253 |
| Bunlardan əlavə, İnvestisiya layihələri üzrə daxil olmuş pul vəsaitləri | 6 000 000 | 6 000 000 |

## 14. ƏMƏLİYYAT XƏRCLƏRİ

| **Xərc maddələrinin adları** | 2022 | 2021 |
|---|---|---|
| İşçi heyəti üzrə xərclər | (7 730 090) | (7 401 883) |
| Kommunal və rabitə | (91 787) | (77 531) |
| Elektrik enerji | (285 619) | (166 882) |
| Ezamiyyə xərcləri | (16 416) | (3 850) |
| Poçt xidməti | (3 826) | (5 937) |
| İnternet xidmətləri | (6 364) | (3 060) |

| | | |
|---|---|---|
| Proqram təminatı | (18 418) | (5 210) |
| İcbari sığorta | (3 816) | (4 739) |
| Bank xərcləri | (92 210) | (45 665) |
| Mühafizə xərcləri | (505 787) | (449 697) |
| İcarə və muzdlu xidmətlər | (63 169) | (36 770) |
| Təmir xərcləri | (63 277) | (49 654) |
| Kredit və investisiya vergi | - | (681 107) |
| Sanitariya-gigiyena xidmətləri | (33 977) | (31 209) |
| İstehsalyönlü müxtəlif xidmətlər | (120 202) | (21 017) |
| Əsas fondlara xidmət haqqı | (22 723) | (41 059) |
| Elmi tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqı | - | (6 640) |
| Geoloji-kəşfiyyat və topoqrafiya-geodeziya xidmətləri | (32 000) | (4 950) |
| Qurğuların cari təmiri | (14 040) | - |
| Abadlaşdırma xidmətləri | (299 186) | (302 473) |
| Beynəlxalq təşkilata üzvlük haqqı | (2 295) | (504) |
| Digər malların alınması | (14 826) | (11 902) |
| Sakinlərə kompensasiya ödənişi | (61 640) | (96 157) |
| Amortizasiya ayırmaları | (1 510 919) | (2 317 536) |
| İstifadə edilmiş material ehtiyatları | (273 533) | (610 066) |
| Sair xərclər | (1 402 673) | (841 878) |
| **Cəmi:** | **(12 668 793)** | **(13 217 376)** |

## 15. XALİS MƏNFƏƏT (ZƏRƏR)

| | **2022** | **2021** |
|---|---|---|
| Xalis mənfəət (zərər) | 104 203 | (2 311 680) |
| Digər məcmu gəlir (investisiya layihələri üzrə məqsədli maliyyələşmə) | 6 000 000 | 5 963 340 |
| **Məcmu gəlir** (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | **6 104 203** | **3 651 660** |

## 16. MALİYYƏ AKTİVLƏRİ VƏ ÖHDƏLİKLƏR

Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir. Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Şirkət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin,təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir.

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir.

Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik mövcud bazara dair məlumatlaran istifadə edir.

### Amortizasiya olunmuş dəyərində qeydə alınan aktivlər

Sabit faiz dərəcəli maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır. İstifadə edilmiş diskont dərəcələri qarşı tərəfin kredit riskindən asılıdır. Debitor borcları, əlaqəli tərəflərdən alınacaq vəsaitlər və ödəniş tarixinədək saxlanılan qiymətli kağızların balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir.

### Amortizasiya olunmuş dəyərində qeydə alınan öhdəliklər

Bazar qiymətləri mövcud olmayan sabit faiz dərəcəli və müəyyən edilmiş ödəmə müddətinə malik maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri, analoji kredit riskinə və yerdə qalan ödəmə müddətinə malik yeni alətlər üçün faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş pul vəsaitlərinin hərəkətinə əsaslanır. Kreditor borcları və əlaqəli tərəflərə ödəniləcək vəsaitlərin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir.

## 17. ÖHDƏLİKLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

### Məhkəmə prosesləri

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Publik Hüquqi Şəxsə qarşı irəli sürülə biləcək iddialarla əlaqədar, rəhbərlik öz təxminlərinə, Publik Hüquqi Şəxsdəxili və kənar peşəkar mütəxəssislərin məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı Maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

### Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının Vergi Məcəlləsi, həmçinin valyuta və gömrük qanunvericilikləri müxtəlif şərhlərə və dəyişikliklərə məruz qalır. Nəzəri cəhətdən, Publik Hüquqi Şəxsin əməliyyatlarına və fəaliyyətinə hazırda tətbiq edilən qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq dövlət nəzarət orqanları tərəfindən etirazın olması mümkündür. Rəhbərlik bunun baş verməsi ehtimalını öz fəaliyyətində nəzərə alır.

Azərbaycan Respublikasının vergi orqanları vergi qanunvericiliyini şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyatlara və fəaliyyətlərə yenidən baxıla bilər. Bunun nəticəsində Publik Hüquqi Şəxsə əlavə vergilər, maliyyə sanksiyaları və penya (faizlər) hesablana bilər. Vergi qanunvericiliyində nəzərdə tutulmuş müstəsna hallar istisna olmaqla, Azərbaycan Respublikasının vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər.

Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq vergi qanunvericiliyinin şərhi düzgündür və vergilərlə bağlı Publik Hüquqi Şəxsin mövqeləri qorunacaqdır. Odur ki, 31 dekabr 2022-ci il tarixində potensial vergi öhdəlikləri üzrə hər hansı ehtiyat yaradılmamışdır (müvafiq olaraq, 31 dekabr 2021-ci il tarixinə vergi riski üzrə ehtiyat - sıfır).

1 yanvar 2002-ci il tarixindən qüvvəyə minmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin 18-ci maddəsinə uyğun olaraq, vergi orqanı qarşılıqlı surətdə asılı olan tərəflər arasında qeyri-bazar qiymətləri ilə aparılan əməliyyatlar və qiyməti bazar qiymətlərinin 30%-dən çox fərqlənən əməliyyatlar üzrə bazar qiymətinin müəyyənləşdirilməsi ilə bağlı düzəlişlər apara bilər və əlavə vergi öhdəlikləri tətbiq edə bilərlər.

### Kapital məsrəfləri ilə bağlı öhdəliklər

Publik Hüquqi Şəxsin 31 dekabr 2022-ci il tarixinə kapital məsrəfləri ilə bağlı öhdəliyi olmamışdır.

### Rəhbərliyə ödənişlər

Tam ştatlı idarəetmə vəzifələrinə görə rəhbərliyə verilmiş ödənişlər əmək müqaviləsi üzrə ödənilən əmək haqlarından və verilmiş mükafatlardan ibarət olmuşdur.

## 18. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Maliyyə risklərinin idarə edilməsi sahəsində Publik Hüquqi Şəxsin fəaliyyəti rəhbərlik tərəfindən maliyyə riskləri kimi təsnifləşdirilən bazar riskini, kredit riskini və likvidlik riskini aşkar edilib həmin risklərin idarə olunmasından və illik xərclər büdcəsinin tərtib olunmasından, proqnozlaşdırmadan və bazarın icmalından ibarətdir.

Publik Hüquqi Şəxsin ümumi maliyyə risklərinin idarə olunması proqramı maliyyə bazarlarında mövcud olan gözlənilməz halların qarşısının alınmasına yönəlib.

Rəhbərlik risklərin idarə olunması üzrə bütün bölmələrlə sıx əməkdaşlıq edir. İdarəetmə, bu risklərin təsirini azaltmaq üçün zəruri addımları atır.

Əlavə olaraq, Publik Hüquqi Şəxsin məruz qaldığı əsas risklərə valyuta riski, bazar riski (məzənnə fərqi riski), kredit riski (debitorlar) və likvidlik riski aiddir.

*a) kredit riski*

Kredit riski qarşı tərəfin Publik Hüquqi Şəxsə qarşı olan öhdəliyini ödəyə bilmədiyi zaman yaranan riskdir. Publik Hüquqi Şəxs bu maliyyə risklərinə müxtəlif maliyyə alətləri vasitəsilə məruz qalır, məsələn: debitor borcları, depozitlər və s.Publik Hüquqi Şəxsin məruz qalacağı kredit riskinin maksimum məbləği maliyyə aktivlərinin hesabat tarixində tanınmış balans dəyəri ilə məhdudlaşır.

*b) valyuta riski*

Valyuta riski xarici valyutaların məzənnəsinin dəyişməsi nəticəsində maliyyə aktivinin dəyərinin dəyişməsi riskidir. Valyuta riski əsasən qeyri-rezidentlərlə aparılan əməliyyatlar nəticəsində yaranan debitor və kreditor borclarından əmələ gəlir. MHBS və Vergi Məcəllesi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gələ bilər. Müvəqqəti zaman fərqi üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olan mənfəət vergisində qeydə alınır.

## 19. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə- təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

Əlaqəli tərəflə aparılmış əməliyyatlar bu Maliyyə hesabatlarında nəzərə alınmışdır.

## 20. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hazırkı Maliyyə hesabatlarının hesabat tarixi və hesabatın buraxılmasına icazə verilmiş tarix arasında heç bir dəyişiklik və ya dəyişiklik tələb edən əhəmiyyətli hadisə baş verməmişdir.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsinin rəhbərliyi adından:

İdarə heyətinin sədri Ş.K.Seyidzadə

Baş mühasib G.N.Əhmədova

Azərbaycan Respublikası, Bakı şəhəri

17 oktyabr 2023-cü il